**SEVİNC ZEYNALOVA**

# İNGİLTƏRƏ-OSMANLI MÜNASİBƏTLƏRİ TARİXİNDƏN (XVI ƏSRİN BİRİNCİ YARISI)

XVI əsrə doğru Osmanlı imperiyası Avropada və Yaxın Şərqdə iqtisadi və beynəlxalq münasibətlərdə əhəmiyyətli rol oynayırdı. Qərbi Avropa ölkələri Şərqi Aralıq dənizi bölgələrlə ənənəvi ticarət əlaqələrinin qorunub saxlanılmasında maraqlı idilər. Bu bölgədəki türk fəthləri, həmçinin Hindistana Afrikanı üzüb keçməklə dəniz yolunun açılması Avropanın Şərqlə apardığı Levant ticarətinin heç də süqutunu doğurmamışdı; o, yenə də böyük əhəmiyyət kəsb edirdi, hərçənd ki, Ümid burnu yolu ilə Hindistanla ticarətə nisbətən artıq az gəlirli idi (5, s.3). Osmanlı imperiyası bir çox ölkələrlə, o cümlədən Venesiya, Genuya, Fransa, Macarıstan, Avstriya, Polşa ilə ticarət əlaqələrinə malik idi, Şərqlə tranzit ticarəti genişləndirmişdi.

Qərbi Avropa dövlətlərinin Osmanlı imperiyası ilə münasibətləri müstəqil sahə kimi siyasi əhəmiyyət də kəsb edirdi. Türklərə qarşı Ümumavropa ittifaqı yaratmaq cəhdləri dəfələrlə boşa çıxdığından, bir çox Avropa ölkələri Porta ilə diplomatik münasibətlər qurmağa can atırdılar, onunla siyasi münasibətlərə girməyə, heç olmasa, neytrallıq yaratmağa çalışırdılar.

Osmanlı imperiyasının beynəlxalq siyasi və iqtisadi rolunun artması İngiltərənin də xarici siyasətində XVI əsrin əvvəllərindən başlayaraq müəyyən yer almağa başlayır. Yüzillik müharibə (1337-1453) başa çatandan sonra ilk dəfə idi ki, İngiltərə beynəlxalq siyasətə fəal qatılırdı. Tarixşünaslıqda Tüdor İngiltərəsinin bu dövrdə xarici siyasətinin məhz bu istiqaməti zəif işıqlandırılmışdır. Problemin tədqiqindəki çətinlik onunla bağlıdır ki, İngiltərənin xarici siyasətində Türkiyə məsələsinin yeri çox vaxt digər Avropa dövlətlərinin Şərq siyasəti ilə bağlı müəyyən olunur; xüsusilə də Habsburqlar tərəfindən təşkil olunması nəzərdə tutulan antiosman yürüşünə və Fransa-Osmanlı ittifaqına münasibətdə ingilis siyasətçilərinin fəaliyyəti araşdırılır.

Məlum olduğu kimi, imperator V Karl Habsburqun Osmanlılara qarşı xaç yürüşü ideyası universal xristian monarxiyası yaratmaq planlarına tabe edilmişdi. Üstəlik, imperator bu siyasətində heç də həmişə Avropadakı müttəfiqlərinin maraqlarını nəzərə almırdı. Londonda V Karlla danışıqları zamanı (1522-ci il) ingilis kansleri Vulsi imperatorun türklərə qarşı birgə hərbi əməliyyatlara başlamaq təklifinə cavab olaraq demişdi: «Əvvəlcə bizə öz tüklərimizi (diplomat fransızları və şotlandları nəzərdə tuturdu – S.Z.) qovmağa imkan verin» (2, s.63). Təsadüfi deyil ki, fransızlar Paviya yaxınlığında məğlubiyyətə uğrayanda (14 fevral 1525-ci il) V Karlın güclənməsindən ehtiyat edən ingilis monarxiyası Fransa ilə ittifaqa meyl etməyə başlamışdı; Fransa isə bu zaman Osmanlı sultanı I Suleymanla Habsburqlara qarşı birgə fəaliyyət haqqında gizli danışıqlar aparırdı. Hələ 1525-ci ilin noyabrında Karaçiollo adlı məxfi məlumatlı protonotariy imperator V Karla yazırdı ki, Fransa və onun müttəfiqləri olan İngiltərə və İtaliya dövlətləri osmanlılarla birləşərək Habsburqlara qarşı çıxa bilərlər (2, s.63).

Göründüyü kimi, İngiltərə 1520-ci illərdə Osmanlı imperiyasının mümkün müttəfiqləri sırasında idi. Həqiqətən, bərqərar olmuş beynəlxalq şəraitdə ingilis monarxiyası siyasi və iqtisadi baxımdan daha sərfəli olan müttəfiqlər axtarırdı ki, Habsburqlarla yalnız diplomatik yolla mübarizə aparsın. Belə bir müttəfiq bu mərhələdə yalnız Fransa ola bilərdi, lakin onunla ittifaq İngiltərəni qaçılmaz olaraq Türkiyənin rəsmi də olmasa, faktiki müttəfiqinə çevirirdi.

Bu məsələ ilə əlaqədar deməliyik ki, İngiltərənin Osmanlılarla danışıqları birbaşa Şərqlə bağlı deyil, sırf Avropa məsələləri ilə əlaqədar baş verirdi. İngilis diplomatiyasının fəallığı sayəsində İngiltərənin Transilvaniya knyazlığı ilə hərbi-siyasi ittifaqı da bu səbəbdən meydana gəlmişdi (3, s.9).

1529-cu ildə bağlanmış Kambre sülhünün şərtlərinə görə, Fransa və İngiltərə türklərə qarşı mübarizədə imperatora yardım etməyi öhdələrinə götürsələr də, nə fransız kralı I Fransisk, nə də ingilis monarxı VIII Henri bu şərtləri yerinə yetirmək niyyətində deyildilər. Papanın və imperatorun xaç yürüşündə iştirak etmək haqqında çıxışlarına gəlincə isə, VIII Henri hər vasitə ilə ondan yayınmağa çalışırdı. İngilis kralı papa kuriyası yanında öz nümayəndəsi Qinuççiyə tapşırmışdı ki, «imperatorun və papanın türk təhlükəsi haqqında fikirlərinin gülünc olmasını» papaya çatdırsın (2, s.64). Habsburqlara qarşı türklərin hücumu ərəfəsində (1542-ci il) yardım haqqında V Karlın xahişinə cavab olaraq ingilis kralı Romadakı nümayəndəsindən papaya belə bir sual verməsini istəmişdi: «Nə üçün imperator türklərə qarşı kömək haqqında xahiş edərkən yalnız öz monarxiyasını möhkəmləndirmək haqqında düşünür?» (2, s.64).

VIII Henri eyni zamanda Osmanlıların vassalı olan magar kralı Yanoş Zapolyaiyə də maddi yardım etmək niyyətində idi, çünki hesab edirdi ki, bu, İngiltərənin Avropadakı siyasəti üçün dəyərlidir (4, s. 47). Papanın İngiltərə üzərində kilsə anafeması təyin edəcəyi haqqında hədələri də VIII Henrini narahat etmirdi. Məsələ burasındadır ki, ingilis diplomatları türklərə qarşı lüteran knyazlarla imperatorun birləşəcəyindən ehtiyat edirdilər. VIII Henri Romadakı nümayəndələrindən biri Benetadan xahiş etmişdi ki, papa ilə söhbəti zamanı ona belə bir fikir aşılasın ki, V Karl lüteranlarla sazişə girsə, papanın nüfuzu Avropada xeyli aşağı düşəcək (2, s.65). Elə 1532-ci ildə V Karlın yanına göndərilmiş ingilis nümayəndəsi Tomas Kranmer də lüteran knyazları ilə gizli əlaqələr qurmalı və Habsburqlarla münaqişə şəraitində İngiltərənin onlara kömək edəcəyi vədini verməli idi.

Lakin türklər alman knyazları üçün böyük təhlükə olduğundan, Kranmer öz missiyasını yerinə yetirə bilmədi. İmperator knyazlara güzəştə getdi və 29 iyun 1532-ci ildə Nürnberq dini sülhü imzalandı (2, s.65). Məhz həmin tarixdən alman knyazlarının türk siyasətinin əsas məqsədi bu sülhün şərtlərini qorumaq oldu. Ona görə də ingilis diplomatiyasının alman protestantları ilə müttəfiqlik münasibətləri türk probleminin həlli işində çətinlik yaradırdı, çünki İngiltərə-Fransa ittifaqı heç də Fransanın Şərq siyasətinə ingilislərin tam haqq qazandırması kimi qəbul oluna bilməzdi.

1532-ci ildə Bulonda birgə görüşlərində VIII Henri və I Fransisk türk məsələsində yekdillik bildirdilər və «türklərlə mübarizidə» qətiyyətli olduqlarını elan etdilər (3, s.9). Lakin Habsburqları çaş-baş salmaq elə də asan məsələ deyildi. Amma 1530-cu illərin ortalarına doğru ingilislərlə fransızların arasında bəzi fikir ayrılıqları yaranır ki, bunların da kökündə I Fransiskin papa ilə gizli danışıqlarından İngiltərənin narazı olması idi. Cənubi-Şərqi Avropada gərginliyin zəifləməsi ingilis diplomatiyası üçün türk problemini müvəqqəti olaraq gündəlikdən salırdı. Ümumiyyətlə isə, İngiltərənin xarici siyasətində antihabsburq istiqaməti dəyişmişdi, ona görə də VIII Henri Yanoş Zapolyai ilə razılığa gəlməyə və onun Avstriya hakimi Ferdinandla sülh müqaviləsi bağlamasına mane olmağa çalışırdı. Bu məqsədlə Vyanaya (burada 1535-ci ilin yazı-yayı Zapolyainin Ferdinandla danışıqları gedirdi) Romadakı ingilis agenti Qreqorio de Kazalenin qardaşı Françesko de Kazale göndərilmişdi. Lakin Ferdinandın casusları Françesko de Kazaleni ələ keçirərək türməyə salmağa müyəssər olur. Türmədən çıxandan sonra Françesko de Kazale vəziyyətlə yaxından tanış olduqdan sonra İngiltərənin dövlət katibi Kromvelə yazırdı ki, Ferdinand Yanoş Zapolyaini Habsburqlar üçün əlverişli olan sülh imzalamağa məcbur edə bilməyəcək (3, s.65). 1536-cı ildə VIII Henri Transilva-

niya knyazına hələ də yardım göstərməyə hazır idi, çünki onun səfirləri eyni vaxtda lüteran knyazları və fransızlarla yeni antihabsburq ittifaqı bağlamaq haqqında danışıqlar aparırdı.

1536-cı ilin fevralında Porta ilə Fransa arasında faktiki olaraq ilk siyasi və ticarət müqaviləsi imzalandı (1, s.11). Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu müqavilənin preambulasında Fransanın düşmənləri siyahısında İngiltərənin də adı var idi (2, s.65-66). Çox qəribədir ki, eyni müqavilənin 16-cı bəndində İngiltərə kralı I Fransiskin əbədi dostu və müttəfiqi adlandırılırdı. Görünür, bunu da izah etmək mümkündür: həmin dövrdə – İngiltərə və Fransa düşmən koalisiyalarda olduğu şəraitdə belə, fransız kralı ingilis monarxı VIII Henrini yalnız dostu adlandırırdı. Hərçənd ki, müqavilənin 16-cı bəndində deyilirdi ki, papa III Pavel, İngiltərə və Şotlandiya kralları da Türkiyə ilə ittifaqa girməyə hazırdırlar (2, s.66). Lakin III Pavelin Şərq məsələsində mövqeyi və VIII Henrinin tərəddüdləri göstərir ki, bu iddialar həqiqətə o qədər də uyğun gəlmirdi. Hər halda, o zaman VIII Henri I Fransiskin Şərq siyasətini dəstəkləmək niyyətində deyildi; bu, İngiltərəyə heç bir real siyasi mənfəət gətirməzdi. VIII Henri döyüşən tərəflərdən hansının tərəfini tutmaqla xeyli tərəddüdlər edirdi – bir tərəfdən, o, V Karla türklərə qarşı mübarizədə kömək göstərməkdən imtina edirdi, digər tərəfdən, 1520-ci illərdən fərqli olaraq, 1530-cu illərdə Fransa – Habsburq imperiyası münasibətlərində İngiltərəyə «vasitəçi» rolu ayırmaq şərtilə «Türkiyə məsələsi»ndə imperiyaya güzəştə getməyə razılıq verirdi. 1530-cu illərin sonunda – İngiltərənin Almaniyanın protestant knyazları ilə yaxınlaşdığı bir vaxtda «Türkiyə problemi» ingilis diplomatiyasını daha az maraqlandırır.

Osmanlı imperiyası ilə birbaşa əlaqələri olmayan İngiltərə bir müddət Habsburqlara meyl etdiyindən, Türkiyənin Qərbi Avropadakı mümkün müttəfiqləri siyahısından çıxır. Ümumiyyətlə isə qeyd etmək olar ki, artıq XVI əsrin 30-cu illərində, xüsusilə 40-cı illərin əvvəllərində İngiltərə «Şərq məsələsi»ndə öz siyasətinin əsas prinsiplərini müəyyən etməyə başlayır.

### *ƏDƏBİYYAT:*

1.Данциг Б.М. К вопросу о капитуляциях на Ближнем Востоке. // Народы Азии и Африки, М., 1971, № 3.
2.Ивонин Ю.Е. Из предыстории восточного вопроса в первой половине XVI в. (Англия и франко-турецкий союз). // Вестник ЛГУ, 1974, № 2.
3.Ивонин Ю.Е. Становление европейской системы государств. Минск, 1989.
4.Османская империя и страны Центральной, Восточной и Юго-Восточной Европы в XVI в. М., 1998, т.1.
5.Цыпурина Г.И. Английская дипломатия в Османской империи во второй половине XVI в. // В кн.: Англия в эпоху абсолютизма. Статьи и источники. М., 1984.

**СЕВИНДЖ ЗЕЙНАЛОВА**

## ИЗ ИСТОРИИ АНГЛО-ОСМАНСКИХ ОТНОШЕНИЙ (ПЕРВАЯ ПОЛОВИНА 16 ВЕКА)

Статья посвящена истории англо-османских отношений первой половины 16 века. Здесь рассматриваются вопросы международной политики европейских государств по отношению к Османской империи, особенности восточной политики Англии и предыстория «Османского вопроса». Особое место уделено деятельности английских дипломатов в решении англо-османских противоречий.

**Tarix və onun problemləri, №1 2010**

**SEVINC ZEYNALOVA**

## FROM THE HISTORY OF ENGLISH-OTTOMAN RELATIONS (IN THE FIRST HALF OF THE XVI CENTURY)

The frticle deals with the history of English-Ottoman relations in the first half of the XVI century. The article touches upon the questions of international policy of European states towards the Ottoman Empire, peculiarities of oriental policy of England and prehistory of "Ottoman matter". In the article special attention is given to the activity of English diplomats in the solution of English-Ottoman conflicts.

***Rəyçilər: dos.R.A.Muğanlinski, t.e.d.R.C.Süleymanov.***
***BDU-nun Qədim dünya və orta əsrlər tarixi kafedrasının 19 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***